

■ Rauf QARAİŞIQ





## SEVGİLİ DOSTUM

Sənə -
səni özümdən də çox sevirəm deyə bilmədim.
Özümü heç sevmədim ki...
Sənə -
gözüm, canım deyə bilmədim.
Canım, gözüm, belə də, bir az ...saz deyil,
dilim gəlmədi deyəm...
Sənə -
həyatım deyə bilmədim.
Həyatım, belə də qarışıq-dolaşlq keçib...
Sənə -
ayım, ulduzum deyə bilmədim.
Ay, ulduz - Allahın...
Sənə,
sənə - sevgili dostum deyəcəm!!!
Bağışla, bundan yekə söz tapa bilmədim
deyəm sənə
Sevgilim mənim,
Dostum mənim,
Qarıcığım mənim...

## BİLMƏDİM

Qulağım dolusu
Səsinə qulaq asa bilmədim!
Gözüm dolusu
Nurlu üzünə baxa bilmədim!
Ürəyim dolusu
Sevə bilmədim səni!!!
...Vaxtım yoxuydu.
İndi vaxtım var,
Amma, sən yoxsan,
Ata!!!

## AD GÜNÜM

dünən 16-sıydı,
avqustun 16-sı, yəni,
16 dərəcə istilik varıdı...
qara-qura,
buludlu-muludlu,
yağışlı-mağışlı və
mağmun bir günüydü...
mənim ad günümüydü
dünən...
YENƏ ZƏNG ELƏMƏDİLƏR MƏNƏ!!!
keyfini pozma yoldaş leytenant,
bunlar heç
"polkovnikə məktub yazmırlar"...
dünən 16 dərəcə
SƏRİNLİK vardı,
istilik yox !..

## DÜNYA

Dünya keçər -
gedər,
Hamıdan keçər -
gedər!
Kimdənsə keçər -
bulanar,
Kimdənsə -
Durulub keçər...

## BU ŞƏHƏRİN

Bu şəhərin
havası da,
küçəsi də, dalanı da
satanı da, alanı da
kasıbı da, kalanı da
KALAN YALAN DANIŞIR!!!
" Hörüklərin qaradır,
Qaşların ayparadır...
...Bakı,sabahın xeyir!? "

## SƏNİN ÜÇÜN

Sənin üçün çox darıxırdım...
Görüşdük...!
Karıxdım!
Duruxdum!
Sonra üz-üzə durduq
dinməzcə,
Sonra
Ikimiz də doluxsunduq-
Yaman
dəyişmişik,
Yaman
qocalmışıq,
Ay
Vətən!..

## GECƏ YARPAQ DÜŞƏNDƏ

Yamyaşıl çalarları
Payız düzlərdən silər -
Ağacın yaz donundan
Bir naxış da əksilər
Gecə yarpaq düşəndə.

Daşların oyuğuna
Dəli küləklər sinər.
Budaqların ucuna
Qonan sükut diksinər
Gecə yarpaq düşəndə.

Sızlayar sızım-sızım,
Ürək kövrəklik tapar .
Sanki bir gözəl qızın
Kipriyindən yaş qopar -
Gecə yarpaq düşəndə.

## BİRCƏ ZƏRRƏ

*Mirmahmuda*

mən tənha oluram - sənsiz olanda
yəqin Sən də tənha olursan
mən tənha olanda
bircə zərrə - mənim boyda
Allahım mənim!..

mən günahkar oluram - sənsiz olanda
yəqin Sən də günahkar olursan
mən gunahkar olanda
bircə zərrə - mənim boyda
Allahım mənim!..
bu
tənha
və
günahkar
zərrəciyini
bağışla!
bağışla,
Allahım mənim!..

## ƏGƏR

*Bir eks-dosta*

Əgər Allah səni
Ağac kimi bitirsəydi yer üzündə
Yəqin sən palma olardın.
Düpbələmdüz palma.
Bakı palması.
Qərib palma.

Əgər Allah səni
Dəniz kimi köçürsəydi yer üzünə
Yəqin sən Xəzər olardın.
Dibinə qədər qurumuş Xəzər.
Bizim Xəzər.
Qərib Xəzər.

Əgər Allah səni
Şəhər kimi gətirsəydi yer üzünə
Yəqin sən Şuşa olardın.
Daşı daş üstündə qalmayan Şuşa.
Bizim Şuşa.
Qərib Şuşa.

## MƏN

Mən
Sənə gec vuruldum...
Tanımırdım Səni...
Əvvəl qumunu-dənizini ,
Sonra qulunu-kənizini sevdim.
Əvvəl otunu-atını-itini sevdim,
Sonra,
Sonra...
Yaratdıqlarının içində
ən naşükür olanları - insanları sevdim.
Sonra...
Bildim ki,
hər şey - Sənin!!!
Səni sevdim.
Bir - Cəm mənim,
Tək - Cəm mənim!
Allahım mənim!
Hər şeyim mənim!!!